# Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin 2019-cu ilin birinci yarısının sosial-iqtisadi inkişafına və qarşıda duran vəzifələrə dair hesabat MƏRUZƏSİ

(Əvvəli 7-ci səhifədə).

tütün istehsalına başlanılmışdır. 2019-cu ildə 102 nəfər kümçü tərəfindən 15423 kq barama istehsal edilmişdir. Barama istehsalının artırılması məqsədi ilə 2016-cı ilin payızından etibarən tut tinglərinin əkilməsinə başlanılmışdır ki, bu da gələcəkdə rayonda barama istehsalının artırılmasına şərait yaradacaqdır.

Cari ildə 75 hektar sahədə tütün əkilmişdir. Artıq tütün yarpaqlarının qırımına başlanılmışdır.

Dövlət Aqrar İnkişaf Mərkəzi tərəfindən torpaq sahibləri arasında, pay torpaqlarının könüllülük prinsipi əsasında birləşdirilərək iri təsərrüfatların yaradılması istiqamətində təbliğat işləri aparılır. Belə təsərrüfatların yaradılması iqtisadi cəhətdən səmərəli olmaqla təsərrüfatda bütün aqrotexniki qaydalara riayət olunması üçün imkan yaradır.

Rayon tingçilik təsərrüfatında 2 hektar yeni İtaliya sortu olan fındıq bağı salınmış və həmin bağda damcı üsulu ilə suvarma sistemi quraşdırılmışdır.

Qəbələ Regional Meşə Təsərrüfatı Mərkəzi tərəfindən cari ilin altı ayında meşə fondu torpaqlarında 31 hektar meşə əkini aparılmışdır ki, bunun da 30 hektarı aqro bağlardır. İlin əvvəlindən meşə fondu torpaqlarında 267 hektar sahədə meşə əkini və səpinlərinə xidmət göstərilmişdir. 73 hektar sahədə tingliklərə xidmət işləri aparılmış, 0,5 hektar ağac və kol cinslərinin toxumlarının səpilməsi həyata keçirilmişdir. 0,38 hektar sahədə toxmaçar əkilmiş, 4 kiloqram ağac və kol cinslərinin toxumları tədarük edilmişdir.

Hazırda rayonda kənd təsərrüfatı işlərinin aparılması üçün fiziki şəxslərdə 392 ədəd, hüquqi şəxslərdə isə 194 ədəd müxtəlif kənd təsərrüfatı texnikaları vardır. Bütövlükdə rayonda 62 ədəd taxılyığan kombayn, 25 ədəd tırtıllı və 405 ədəd təkərli traktor, 24 ədəd buldozer, 52 ədəd ekskovator və s. kənd təsərrüfatı texnikası mövcuddur. Kənd təsərrüfatı texnikası parkı daim təzələnir.

Rayonda iri buynuzlu mal-qaranın sayı 45888 baş, o cümlədən inək və camışlar 22843 baş, qoyun-keçilər 190201 baş, donuzların sayı isə 845 başdır. Ət istehsalı (diri çəkidə) 2035,1 ton, o cümlədən mal əti 821,4 ton, camış əti 162,3 ton, qoyun əti 698,5 ton, keçi əti 5,7 ton, donuz əti 3,7 ton, quş əti 343,5 ton, süd istehsalı 20675,2 ton, o cümlədən inək südü 20142 ton, camış südü 341,3 ton, qoyun südü 191,9 ton, yumurta istehsalı 11480 min ədəd, yun istehsalı isə 312,5 ton olmuşdur.

Rayonumuzda fəaliyyət göstərən 2 müasir heyvandarlıq kompleksi və 4 kiçik həcmli heyvandarlıq təsərrüfatı rayon əhalisinin heyvandarlıq məhsullarına olan tələbatının ödənməsində mühüm rol oynayır.

Ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində görülən tədbirlər çərçivəsində heyvandarlıq məhsulları istehsalının artırılmasında, mal-qaranın cins tərkibinin yaxşılaşdırılmasında və damazlıq keyfiyyətlərinin yüksəldilməsində mühüm rol oynayan süni mayalama tədbirlərinin həyata keçirilməsi genişləndirilir.

Bu məqsədlə rayonda 7 nəfər süni mayalama mütəxəssisi fəaliyyət göstərir. Keçən 6 ay ərzində süni mayalama mütəxəssisləri tərəfindən 4417 baş inək və düyələrdə süni mayalama aparılmış və süni mayalandırılmışmış heyvanlardan 2166 baş yüksək genetik potensiala malik buzovlar alınmışdır. 2016-cı ilin oktyabr ayından etibarən süni mayalama yolu ilə alınmış hər bir baş buzova dövlət büdcəsinin vəsaiti hesabına subsidiya verilir. 2019-cu ilin 6 ayında 1161 nəfər heyvan sahibinə 1390 baş süni mayalanmadan alınmış buzovlara görə 139000 manat subsidiya verilmişdir. Bu iş mütəmadi olaraq hər ay davam etdirilir. Ona görə də heyvan sahibləri heyvanların mayalandırılmasında mütərəqqi üsul olan süni mayalamaya üstünlük verirlər. Bunun nəticəsində rayonda mal-qaranın cins tərkibi tədricən yaxşılaşır.

Heyvanların yoluxucu xəstəliklərə tutulmaması üçün vaxtaşırı lazımi müayinə və profilaktika işləri aparılır. 2019-cu ilin 6 ayında 46830 baş iri buynuzlu heyvanda, 182080 baş xırda buynuzlu heyvanda, 991 baş atda, 1072 baş donuzda qarayaraya görə, 178261 baş xırda buynuzlu heyvanda, 45494 baş iri buynuzlu heyvanda dabağa qarşı, 15968 baş xırda buynuzlu heyvanda, 2194 baş iri buynuzlu heyvanlarda bruselyoza qarşı peyvəndləmə tədbirləri aparılmışdır. Hazırda rayonda epizootik durum sabitdir.

Respublikamızın paytaxtı Bakı şəhərində 2006-cı ildən təşkil edilən kənd təsərrüfatı məhsullarının satışı yarmarkalarında rayonumuzun kənd təsərrüfatı məhsulları istehsalçıları da fəal iştirak edirlər. 2019-cu ilin altı ayında həmin yarmarkalarda 21,7 ton tumlu, 15 ton qərzəkli meyvə və 3,8 ton müxtəlif tərəvəz məhsulu satılmışdır. Məhsul istehsalçılarının satış yarmarkalarında iştirakı davam etdirilir.

Ölkə Prezidenti cənab İlham Əliyevin aqrar sahəyə daim qayğı göstərməsi və bu sahədə rayonda görülən işlər bizə deməyə imkan verir ki, rayonumuzda aqrar sahə daha da inkişaf edəcəkdir.

**Hörmətli yığıncaq iştirakçıları!**

2019-cu ilin birinci yarısı ərzində rayon icra hakimiyyətinə daxil olan vətəndaş müraciətləri operativ şəkildə baxılması təmin edilmişdir.

Bu dövrdə rayon icra hakimiyyətinə ümumilikdə 524 ərizə daxil olmuşdur. O cümlədən rayon icra hakimiyyətində baxılmaq üçün 287 ərizə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından, 6 ərizə Milli Məclisdən, 12 ərizə Nazirlər Kabinetindən, 24 ərizə digər mərkəzi icra hakimiyyəti orqanlarından, 195 ərizə isə vətəndaşlardan birbaşa daxil olmuşdur.

Vətəndaşlar tərəfindən göndərilən ərizələrin məzmunu əsasən mənzillə təminat, müalicəyə göndərilmə, ünvanlı dövlət sosial yardımın təyin edilməsi, birdəfəlik maddi yardımın verilməsi, işə düzəlmə və s. barədə olmuşdur.

Daxil olan ərizələr ətraflı öyrənilərək hər birinə qanunvericilikdə nəzərdə tutulmuş qaydada cavab verilmişdir.

Ötən müddət ərzində vətəndaşların qəbulunun həyata keçirilməsi istiqamətində də müvafiq işlər görülmüşdür. Belə ki, 2019-cu il birinci yarısı ərzində 400 nəfər vətəndaş rayon icra hakimiyyətinin başçısı tərəfindən qəbul edilmişdir. Qəbula gələn vətəndaşların müraciəti ilə bağlı lazımi tədbirlər görülmüş, onların haqlı tələbləri qanunamüvafiq qaydada həll edilmişdir.

Eləcə də hesabat dövrü ərzində rayon icra hakimiyyəti başçısının 20 səyyar görüş-qəbulu keçirilmişdir. Qəbullarda iştirak edən 1334 nəfərdən 129 nəfəri müxtəlif məsələlərlə bağlı müraciət etmiş, təkliflər irəli sürmüşlər.

İrəli sürülən təkliflərin və müraciətlərin 108-i həll edilmiş, 12 məsələnin həlli ilə bağlı müvafiq izahat verilmiş, digər 9 məsələnin həlli istiqamətində respublikanın əlaqədar təşkilatları qarşısında məsələ qaldırılmışdır. Bunlar əsasən yaşayış məntəqələrinə qaz xəttinin çəkilməsi, elektrik dirəklərinin dəyişdirilməsi, yolların asfaltlaşdırılması, yeni məktəb binalarının, səhiyyə, mədəni-maarif obyektlərinin, körpülərin tikintisi, artezian quyularının qazılması və sel təhlükəsi olan çaylarda sahilbərkitmə işlərinin aparılması ilə bağlı olmuşdur.

**Hörmətli yığıncaq iştirakçıları!**

2019-cu ilin birinci yarısı ərzində rayonumuzda görülən işlər və bu işlərin yerinə yetirilməsi istiqamətində rayon icra hakimiyyətinin, digər idarə, müəssisə və təşkilatların fəaliyyəti barədə sizə qısa məlumat verdim.

Əldə edilən uğurlar bizi qarşımızda duran məsuliyyətli vəzifələrin daha inamla həyata keçirilməsinə ruhlandırır. Əminliklə bildirmək istəyirəm ki, Qəbələ Rayon İcra Hakimiyyəti 2019-cu ili daha böyük nailiyyətlərlə başa çatdırmaq üçün fəaliyyətini genişləndirəcək, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə verdiyi göstəriş və tövsiyələrin, eyni zamanda qanunvericiliklə üzərinə düşən vəzifələrin yerinə yetirilməsi ilə bağlı lazım gələn bütün işləri təmin edəcəkdir.

**Diqqətinizə görə sağ olun.**

## Vətəndaşların nəzərinə

*Azərbaycan Respublikasının Daxili İşlər Naziri general-polkovnik cənab Vilayət Eyvazov tərəfindən 31 avqust 2019-cu il tarixində Şəki şəhərində bölgə üzrə vətəndaşların qəbulunun keçirilməsi nəzərdə tutulur.*

*Vətəndaşlar daxili işlər orqanları əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı Qəbələ rayon polis şöbəsinə müraciət etməklə qəbula yazıla bilərlər.*

*Qəbula yazılmaq istəyən vətəndaşlar 14 avqust 2019- cu il tarixədək Qəbələ rayon polis şöbəsinə müraciət edərək qeydiyyatdan keçməlidirlər.*

***Ünvan:** Qəbələ ş. Heydər Əliyev prospekti, 141.*

***Əlaqə tel:** (024) 205-18-28.*

## Qəbələ rayon polis şöbəsində polisə ictimai dəstək üzrə vakant olan mülki vəzifələrə işə qəbul ilə əlaqədar ELAN

Polisin qanunla müəyyən edilmiş vəzifələrinin icrasında geniş vətəndaş iştirakçılığına nail olunması, əhalinin bütün qrup və təbəqələri ilə qarşılıqlı əlaqələrin və etimad mühitinin möhkəmləndirilməsi məqsədi ilə Qəbələ rayon polis şöbəsində polisə ictimai dəstək üzrə 11 vakant mülki vəzifəyə qəbul elan edilir.

Ali və ya orta-ixtisas, yaxud tam orta təhsilli, yaşı 20-dən 23-dək, boyu 180 santimetrdən hündür, idman cüssəli, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, əvvəllər özü və yaxın qohumları məhkum olunmamış Azərbaycan Respublikasının vətəndaşları aşağıda göstərilən sənədlərlə Qəbələ RPŞ-yə müraciət edə bilərlər:

1. ***şəxsiyyət vəsiqəsi;***
2. ***təhsil haqqında sənəd;***
3. ***hərbi bilet;***
4. ***tərcümeyi-hal;***
5. ***9x12 sm ölçüdə 1 ədəd, 3x4 sm ölçüdə 2 ədəd rəngli fotoşəkil.***

Vətəndaşların polis orqanları ilə əməkdaşlığı onların ictimai asayişin qorunması üzrə vəzifələrin yerinə yetirilməsində iştirakını nəzərdə tutur və bu, onların qanunvericiliklə qadağan olunmayan fəaliyyətlə məşğul olmalarını istisna etmir.

**Ünvan:** *Qəbələ şəhəri Heydər Əliyev prospekti 141.*

**Əlaqə telefonu:**

*(024) 205-18-28.*

## İtmişdir

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 fevral 2001-ci il tarixli 03 saylı qərarı ilə Qəbələ şəhər sakini **Alpaşayev Akif Məmmədəli oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 2517 F nömrəli (kod 40601004) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 25 fevral 1999-cu il tarixli 04 saylı qərarı ilə Nic qəsəbə (əvvəlki kənd) sakini **Mamedov Əşrəf Abdulaziz oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 292 A nömrəli (kod 40600068) və JN seriyalı 292 B nömrəli (kod 40600068) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamələr** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 dekabr 1997-ci il tarixli 29 saylı qərarı ilə Zirik kənd sakini **Zeynalov Tərbiyə Əsgər oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 0028 nömrəli (kod 40606028) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 15 may 1998-ci il tarixli 09 saylı qərarı ilə Həmzəli kənd sakini **İsgəndərov Tərlan İsgəndər oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 357 nömrəli (kod 40605018) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 25 iyun 1998-ci il tarixli 11 saylı qərarı ilə Yeni Dizaxlı kənd sakini **Qədirov Ələşrəf Abdulhəmid oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 221 A nömrəli (kod 40606018) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Zaqatala Regional Qaz-İstismar İdarəsinin rəhbərliyi və Qəbələ Xidmət Sahəsinin kollektivi iş yoldaşları **Elbrus Məmmədova** bacısı

**GÜLNARƏ XANIMIN**

vaxtsız vəfatı ilə əlaqədar kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.

«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56

Redaktor Varis Yaqubov.

TƏSİSÇİLƏR: Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər
Məsul katib Qüdrət Səmədov.

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir. Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № AZ36AİİB 33080019444900218149 VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Dizayner Rais Rəşidov
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
Tiraj 1340